# Nəsiminin İran divanı üzərinə bir baxış

İdeologiya, irfan və fəlsəfə etibarilə Azərbaycan klassik ədəbiyyatı olduqca zəngin ədəbiyyatdır. Hansı ki, cəmiyyətdə olan boşluqları doldura bilmək üçün hakim dairələrə müxtəlif imkanlar yarada bilir. Cəmiyyətin psixologiyasını idarə edə bilmək, onları müəyyən qanunlar ətrafında birləşdirə və dövlətin bayrağı altında sağlam şəkildə yığa bilmək tarix boyu hər bir hakimiyyətin arzusu olmuşdur. Xüsusilə də İslamın qədim Azərbaycan torpaqlarına yayılmasından və Azərbaycan mədəniyyəti ilə qarşılaşmasından sonra Azərbaycan arif-filosofları ərəblərin siyasi-idoeloji basqılarını yumşaltmaqdan ötrü Azərbaycan və Ərəb mədəniyyətləri arasında körpü yaratmağa çalışdılar. Hansı ki, yeni mədəni körpü nə İslam dini, nə də Azərbaycan mədəniyyəti ilə ziddiyyətdə deyildir. Əksinə bu iki mədəniyyətin ən mühüm və dəyərli cəhətlərini özündə birləşdirirdi. Üzü Həsənoğludan bu tərəfə Xaqani Şirvani, Nizami Gəncəvi, Mövlanə Cəlaləddin, Şah İsmayıl Xətai, Saib Təbrizi, Füzuli, Seyid Əzim Şirvani və əlbəttə, İmadəddin Nəsimi kimi şair-ariflərimiz eyni körpünün yaradanları və qoruyanları idilər. Ancaq əsas məsələ burasındadır ki, Azərbaycan klassikləri Azərbaycan mədəniyyətini Ərəb-İslam mədəniyyəti ilə birləşdirdikdə Azərbaycan-Türk məfkurəsini qalib formadan göstərmək cəhdləri də olmuşdur. Hansı ki, o cəhdlərin sayəsində bu gün də Azərbaycan öz fəlsəfi-dini varlığını qoruya bilmişdir.

İmadəddin Nəsimi yuxarıda qeyd etdiyim arif-filosofların zirvəsində dayanan şairimizdir. O, öz “ənəlhəqq” nəzəriyyəsi ilə şərqin mənliyini özünə qaytara və şərq insanını ərəb istilasının yaratdığı ideoloji məzarlıqdan yenidən dirildə və varlıq qazandıra bildi. Nəsimi düşüncəsi həmin dövr insanının teokratik düşüncə əleyhinə etdiyi mədəni üsyan idi. Hansı ki, həm dünyəvi, həm də mənəvi dəyərləri özündə daşıyan bugünkü Azərbaycan Respublikası məhz həmin mədəniyyətin ləyaqətli və şərəfli varisidir. 2019-cu ilin cənab Prezident İlham Əliyev tərəfindən “Nəsimi ili” elan edilməsi də bunun təsdiqi və sübutudur. Əslində, 2019-cu il Azərbaycan xalqının tarixi köklərə bağlı olan haqqlarının təmin edilmə ili kimi xarakterizə olmalıdır.

Bir neçə ay bundan öncə İİR-nın milli arxivlərindən klassiklərimizə aid olan bir neçə əlyazma kitabı, o cümlədən Nəsiminin türkcə divanı əlimizə çatdı. Heç kəsə gizlin deyil ki, hələ Sovet dövründən bu günə qədər Nəsimi divanı müxtəlif alimlərimizin redaktəsi ilə çap edilmişdir. Həmid Araslı, Cahangir Qəhrəmanov və professor Qəzənfər Paşayevin çap etdirdiyi divanların hər biri dəyərli və öz növbəsində kamil hesab edilsə də, maraqlısı budur ki, həmin divanların hazırlanmasında Nəsiminin İran divanı nəzərdə tutulmamışdır. Həmin dövr Azərbaycanın Təbriz mərkəzli və indiki İraq ərazilərinin də qədim Azərbaycan torpaqları olduğunu nəzərə alsaq Nəsimi şeirlərinin ən çox Cənubi Azərbaycanda mövcud olması öz təsdiqini tapar. Elə bu düşüncə ilə də əlimizə çatan divanı oxumağa və digər divanlarla tutuşdurmağa başladım. Təbiidir ki, Nəsimi kimi dühanın ədəbiyyatı və məfkurəsini dərk və şərh etməsi böyük bir institut işidir, amma farsərəb dillərini bildiyim üçün şəxs olaraq bu müqəddəs okeana baş vurmağa qərar verdim. Əldə etdiyim nəticələr isə olduqca vacib və maraqlıdır: İran divanında olan bir çox şeirlər yuxarıda sadaladığım kitabların heç birində dərc edilməmişdir. Nəsiminin imamlara, peyğəmbərə və Nəimiyə həsr etdiyi bəzi şeirlər Azərbaycanda çap edilən divanlara daxil edilməmişdir. Ola bilər ki, Sovet dönəminin antidini siyasəti bu məsələnin əsas səbəbkarıdır, amma məsələ burasındadır ki, müstəqil Azərbaycanın var olduğu dönəmdə də nəşr edilən divanlarda həmin nöqsanlar gözə dəyir. Mənə elə gəlir ki, İmadəddin Nəsimi düşüncəsini Azərbaycan-şərq-qərb insanına çatdırmaq məqsədilə onun əsərlərinin yenidən təhlili və redaktəsinə böyük ehtiyac vardır. Təkcə Nəsimi deyil, bütün klassiklərimizin həmin diqqətə ehtiyacı olsa da bu il “Nəsimi ili” olduğundan əsas diqqətimizi ona yönəltsək, xalq olaraq millətlərarası mədəni mübarizənin qalibi kimi meydanı tərk edə bilərik.

**Sayman ARUZ.**

Respublika.- 2019.- 30 mart.- S.6.